| | |
|---|---|
| **AKTIN NÖVÜ** | Qanunlar |
| **QƏBUL EDİLDİYİ TARİX** | 03.05.2019 |
| **QEYDİYYAT NÖMRƏSİ** | 1586-VQD |
| **ADI** | “Sığorta fəaliyyəti haqqında”, “Bank olmayan kredit təşkilatları haqqında”, “İnvestisiya fondları haqqında”, “Qiymətli kağızlar bazarı haqqında” və “Antidempinq, kompensasiya və mühafizə tədbirləri haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə |
| **RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ** | Azərbaycan Qəzeti (Dərc olunma tarixi: 26-05-2019, Nəşr nömrəsi: 115), Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 31-05-2019, Nəşr nömrəsi: 05, Maddə nömrəsi: 815) |
| **QÜVVƏYƏ MİNMƏ TARİXİ** | 26.05.2019 |
| **AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU** | 090.160.000 |
| **HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ** | 12201905031586 |
| **HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX** | 29.05.2019 |

**“Sığorta fəaliyyəti haqqında”, “Bank olmayan kredit təşkilatları haqqında”, “İnvestisiya fondları haqqında”, “Qiymətli kağızlar bazarı haqqında” və “Antidempinq, kompensasiya və mühafizə tədbirləri haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu, 11-ci, 15-ci və 27-ci bəndlərini rəhbər tutaraq, “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 4 may tarixli 1140-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** “Sığorta fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, 3, maddə 144, 7, maddə 602; 2009, 7, maddə 517; 2011, 1, maddə 11; 2013, 12, maddə 1470; 2014, 7, maddələr 771, 779; 2015, 11, maddə 1263; 2016, 3, maddə 410, 6, maddə 976; 2017, 7, maddələr 1286, 1294, 12 (I kitab), maddə 2221; 2018, 7 (I kitab), maddə 1392; 2019, 1, maddələr 19, 33, 50) aşağıdakı dəyişikliklər edilsin:

1.1. aşağıdakı məzmunda 37.2.1-1-ci maddə əlavə edilsin:

“37.2.1-1. baş mühasib və ya bu vəzifələri icra edən şəxs peşəkar mühasib olmalıdır;”;

1.2. 44.1.3.3-cü maddədən “mühasibat balansları, mənfəət və zərərlər haqqında” sözləri çıxarılsın;

1.3. aşağıdakı məzmunda 78.9-cu maddə əlavə edilsin:

“78.9. Sığortaçı tərəfindən “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinin təmin edilməsinə nəzarəti maliyyə bazarlarına nəzarət orqanı həyata keçirir.”;

1.4. 91.2-ci maddəyə “malik olmalıdır” sözlərindən sonra “, baş mühasib və ya bu vəzifələri icra edən şəxs peşəkar mühasib olmalıdır” sözləri əlavə edilsin;

1.5. 100.1.1-ci maddədə “mühasibat sənədlərini, o cümlədən ilkin uçot sənədlərini, mühasibat uçotu registrlərini, kitablarını, jurnallarını” sözləri “mühasibat uçotu sənədlərini” sözləri ilə əvəz edilsin.

**Maddə 2.** “Bank olmayan kredit təşkilatları haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, 2, maddə 72; 2013, 7, maddə 789; 2014, 10, maddə 1160; 2016, 3, maddə 407, 4, maddə 641; 2017, 12 (I kitab), maddə 2228; 2018, 5, maddə 844, 6, maddə 1171; 2019, 1, maddə 32) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 8.2-ci maddənin ikinci cümləsinə “malik olmalıdır” sözlərindən sonra “, baş mühasib və ya bu vəzifələri icra edən şəxs peşəkar mühasib olmalıdır” sözləri əlavə edilsin;

2.2. aşağıdakı məzmunda 20.4-cü maddə əlavə edilsin:

“20.4. BOKT tərəfindən “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinin təmin edilməsinə nəzarəti maliyyə bazarlarına nəzarət orqanı həyata keçirir.”.

**Maddə 3.** “İnvestisiya fondları haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, 11, maddə 950; 2014, 10, maddə 1161; 2015, 11, maddə 1261; 2016, 3, maddə 412, 4, maddə 642, 12, maddə 2002; 2017, 11, maddə 1952, 12 (I kitab), maddə 2225; 2018, 7 (I kitab), maddə 1394; 2019, 1, maddə 33) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 24.4.3-cü maddədə “maliyyə” sözü “mühasibat” sözü ilə əvəz edilsin;

3.2. 30.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

“30.2. İnvestisiya fondları və onların idarəçiləri “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikasının Qanununa və bu Qanuna uyğun olaraq mühasibat uçotunu aparır, maliyyə hesabatlarını tərtib, təqdim və dərc edirlər.”;

3.3. aşağıdakı məzmunda 40.2-1-ci maddə əlavə edilsin:

“40.2-1. Səhmdar investisiya fondunun və idarəçinin baş mühasibi və ya bu vəzifələri icra edən şəxs peşəkar mühasib olmalıdır.”;

3.4. 46.20.2-ci maddədə “mühasibat balansı” sözləri “maliyyə hesabatları” sözləri ilə əvəz edilsin;

3.5. aşağıdakı məzmunda 48.1.13-1-ci maddə əlavə edilsin:

“48.1.13-1. investisiya fondları və onların idarəçiləri tərəfindən “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinin təmin edilməsinə nəzarət edilir;”.

**Maddə 4.** “Qiymətli kağızlar bazarı haqqında” Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, 7, maddə 813; 2016, 3, maddə 411, 11, maddə 1756, 12, maddə 2003; 2017, 2, maddə 159, 5, maddə 712, 12 (I kitab), maddə 2222; 2018, 5, maddə 893, 7 (I kitab), maddə 1395; 2019, 1, maddələr 33, 50, 2, maddə 189) aşağıdakı məzmunda 63.2-1-ci və 83.0.10-1-ci maddələr əlavə edilsin:

“63.2-1. Lisenziyalaşdırılan şəxslərin baş mühasibi və ya bu vəzifələri icra edən şəxs peşəkar mühasib olmalıdır.”;

“83.0.10-1. qiymətli kağızlar bazarında lisenziyalaşdırılan şəxslər tərəfindən “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinin təmin edilməsinə nəzarət etmək;”.

**Maddə 5.** “Antidempinq, kompensasiya və mühafizə tədbirləri haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, 7, maddə 1230) 6.1-ci maddəsində “mühasibat sənədləri” sözləri (hər iki halda) “mühasibat uçotu sənədləri” sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 3 may 2019-cu il
1586-VQD